Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

RİİB Regional İnkişaf İctimai Birliyi

# Aylıq Bülleten

May, 2020



# İNKLÜZİV SİNİFLƏRDƏ QİYMƏTLƏNDİRMƏ

Müşahidələr göstərir ki, dünyada, eləcə də Azərbaycanda müəllimlər şagirdlərin biliklərini qiymətləndirərkən əsasən ənənəvi qiymətləndirmə üsullarından istifadə edirlər. Ənənəvi qiymətləndirmə strategiyalarında uşaqlar adətən çox vaxt çətin kurikulum mətnlərini əzbərləməli, eləcə də ildə bir və ya iki dəfə yazılı və ya şifahi sınaqlar vasitəsilə yaddaşlarında nə qaldığını nümayiş etdirməlidirlər. Bu yanaşma isə uşaqların əksəriyyəti üçün maneə yaradır. Belə ki, ənənəvi qiymətləndirmə strategiyaları uşaq-lara öyrəndiklərini nümayiş etdirməyə imkan vermir. Bəzi uşaqlar nəzərdə tutulan bilik hədəflərini doğrultsa da, bunu standart yazılı sınaqlarda ifadə etməkdə çətinliklərlə üzləşir.

İnklüziv siniflərdə tədris edən müəllimlər daim istifadə etdikləri qiymətləndirmə strategiyalarına dəyişiklik etməklə yanaşı formativ qiymətləndirmə kimi daha ənənəvi strategiyaları innovativ qiymətləndirmə strategiyaları ilə birləşdirirlər. Bu, bəzən davamlı və ya həqiqi qiymətləndirmə də adlandırılır. Formativ qiymətləndirmə müəllimləri şagirdlərin necə öyrənməsinə dair cari informasiya ilə təmin edir. Bu isə öz növbəsində müəllimlərə bütün şagirdlərin öyrənməsini təmin etmək üçün öz təcrübələrini daimi olaraq təkmilləşdirmək imkanı yaradır.



## İNKLÜZİV SİNİFLƏRDƏ QİYMƏTLƏNDİRMƏ NÖVLƏRİ

Həm summativ, həm də formativ qiymətləndirmə strategiyalarından inklüziv siniflərdə istifadə oluna bilər. Lakin bir çox hallarda formativ qiymətləndirmədən istifadə edilir. Çünki bu qiymətləndirmə müəllim və şagirdlərə hər kəsin öyrənməsini təmin etmək üçün təcrübələrini daimi olaraq təkmilləşdirmək imkanı yaradır. Sözügedən metod həmçinin uşaqların öyrəndiklərini nümayiş etdirmək üçün bir çox üsul təqdim edir. Bu, inklüziv siniflərdə çox vacibdir. Summativ qiymətləndirmədən istifadə edən müəllimlərin hər bir şagirdin iştirakını təmin etməsi zəruridir. (Nəzərə almaq lazımdır ki, rəqəm və ya hərflərlə qiymətləndirilən summativ qiymətləndirmə sınaqları yaxşı nəticə göstərə bilməyən şagirdlərin ruhdan düşməsinə və təhsildən kənarlaşmasına səbəb ola bilər.)

Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir









# Şagirdləri nə üçün qiymətləndiririk?

## Qiymətləndirmə şagirdin bilik və bacarığı haqqında məlumat toplamaqla yanaşı təlim prosesinin düzgün istiqamətdə yönləndirilməsinə də kömək edir.

Qiymətləndirmə prosesi həm müəllim, həm də şagirdləri tədris prosesinə dair məlumatlarla təmin edir. Bu məlumatlar həm tədris, həmçinin öyrənmə prosesinin keyfiyyətinin təkmilləşdirilməsində istifadə edilə bilər. Davamlı qiymətləndirmə aşağıda göstərilən müxtəlif məqsədlər üçün istifadə edilə bilən zəngin məlumatlar təmin edir:

### *Müəllimin özünürefleksiyası:*

Müəllimin özünürefleksiyası zamanı diqqət mərkəzində bütün şagirdlərin nəzərdə tutulan biliklərə necə yiyələnməsi və dərs planının nəzərdə tutulan tədris nəticələrini nə dərəcədə dəstəklədiyi durur. Müəllim bu suallarla özünürefleksiyasını həyata keçirə bilər:

- *"Hansı təlim metodu faydalıdır, hansı faydalı deyil?"*
- *"Fənni tədris etmək üçün daha yaxşı üsul varmı?"*

### *Şagirdin özünürefleksiyası:*

Bu zaman şagird özünün necə öyrəndiyi və verilən mövzuları necə mənimsədiyini nəzərdən keçirir. Şagird özünə bu sualları verməklə özünütəhlil edə bilər:

- *"Mən necə öyrənirəm /qavrayıram?"*
- *"Daha nələri öyrənmək istəyirəm?"*
- *"Buna necə nail ola bilərəm?"*

### *Valideynlərlə ünsiyyət:*

Davamlı qiymətləndirmənin özünürefleksiya prosesində əsas rolu valideynlər icra edir. Belə ki, onlar daimi olaraq şagirdlərin məktəbdə və evdə öyrənmə prosesində olan fərqlərə diqqət etməlidirlər. Həmçinin evdə öyrənməni məktəbdə öyrənmə ilə əlaqələndirməyi də bacarmalıdırlar.

### *Naliyyətlərin qiymətləndirilməsi:*

Dərs zamanı şagirdlərin qarşısına qoyulan tədris naliyyətlərini nə dərəcədə yerinə yetirməsi və şagirdin bu tədris naliyyətlərini əldə etməsini dəstəkləyən müvafiq metodların seçilməsi naliyyətlərin qiymətləndirilməsinə aiddir.



## Şagirdlərin inklüziv qiymətləndirilməsi nədir?

İnklüziv qiymətləndirmə inklüziv təhsilin təməlində duran prinsiplər və fəlsəfəni dəstəkləyir. Sözügedən metod şagirdlərin biliklərə yiyələnmə imkanlarının genişləndirilməsi ilə yanaşı öyrənənlərin fərdi müxtəlifliyini də nəzərə alaraq təhsilin keyfiyyətinin təkmilləşdirilməsinə öz töhfəsini verir. İnklüziv qiymətləndirmədə istifadə edilən strategiyalar və toplanan məlumatlar yalnız seçim, attestasiya, hesabat vermə və ya müqayisə kimi "ənənəvi" məqsədlərlə istifadə edilməməli, həmçinin bütün təhsil səviyyələrində naliyyətlər və bərabərliyin artırılması üçün daha nəzərəçarpan şəkildə səfərbər edilməlidir.

İnklüziv qiymətləndirmənin 5 əsas elementi var. Həmin elementlər aşağıdakılardır:

- *Bütün qiymətləndirmələr başa düşülən və əlaqələndirilmiş olmaqla yanaşı öyrənmə prosesinin hazırki vəziyyətini müəyyən etmək və öyrənməni təşviq etmək məqsədini rəhbər tutur;*
- *Şagirdlər özlərinin öyrənmə prosesi ilə əlaqəli olaraq qiymətləndirmə prosedurlarına cəlb edilirlər;*
- *Həm summativ, həm də formativ qiymətləndirmə yanaşmaları daxildir;*
- *Müvafiq maraqlı tərəflər arasında formativ qiymətləndirmə üçün təlim və dəstəyə sərmaye qoyuluşu edir;*
- *Qiymətləndirmədə innovasiyaları dəstəkləyir;*
- *Tədqiqat, nəzəriyyə və təcrübə arasında əlaqələni və inklüziv qiymətləndirməni dəstəkləyir.*

Bülleten Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Bülletenin məzmununa görə "Regional İnkişaf" İctimai Birliyi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul oluna bilməz.

Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir





# Ənənəvi qiymətləndirmə strategiyalarının şagirdlərə təsirləri

Bəzi pedaqoqlar ənənəvi qiymətləndirmə strategiyalarının (summativ, sessiyanın və ya ilin sonunda olan yazılı və standartlaşdırılmış sınaqlar) təlim, tədris, kurikulum və şagirdlər üzərində mənfi təsirlər yarada biləcəyini irəli sürür.

## • Tədrisə mənfi təsir

Ənənəvi testlər əsasən şagirdlərin yaddaşını, başqa sözlə dar akademik biliklərini ölçür. Şagirdlər yalnız imtahan dövründə nümayiş etdirə bildikləri biliklərə görə qiymət alırlar. Bu cür yanaşma qeyri-informativdir, yəni şagirdin əslində nə bildiyini tam şəkildə əks etdirmir. Bu səbəbdən təlimin əsas məqsədi, mənası və faydası arxa planda qalır.

## • Kurrikuluma mənfi təsir

İmtahanlar əsas ağırlığın faktiki məlumatları xatırlama və mexaniki əzbərləmə üzərində olmasını vurğulayır. Nəticədə, onlar müəllimləri şagirdlərə daha geniş və yüksək səviyyədə və anlaşıqlı dərs deməyə cəsarətləndirmək əvəzinə, uşaqlara sadəcə dar çərçivəli test etmə bacarığını aşılamağa yönəldə bilər. Belə ki, şagirdlər nəzərdə tutulan təlim hədəflərinə nail olmadan onlara imtahanları uğurla keçməkdə kömək edəcək problemlərin həll edilməsi strategiyalarını hazırlayır.

## • Müəllimlərə mənfi təsir

Test nəticələrinin məktəbləri təsvir və mühakimə etməkdə əsas mənbə olması səbəbindən müəllimlər arasında "test-sevər" tədris proqramı ictimai qınaqdan yayınmağın bir vasitəsinə çevrilmişdir. Nəticədə bir çox müəllimlər test nəticələrini yüksəltmək üçün hətta mübahisəli, tutarlı arqumentlərə əsaslanmayan təcrübələrdən də istifadə etməyə can atır.

## • Şagirdlərə mənfi təsir

Bu cür qiymətləndirmə prosesinin arzuolunmayan təsirlərindən biri də şagirdləri kateqoriyalara ayırmaqdır. Buna səbəb isə şüuraltında şagirdin nailiyyətlərinin məhdudlaşdırılması ola bilər. Müəllimin uşaqdan gözləntiləri az olduğu zaman onun fəaliyyətinə aktiv şəkildə maneə törədəcək bir əməl etməsə belə, bu cür yanaşma şagirdlər arasında özünə qarşı etinasızlıq hallarına gətirib çıxara bilər. Bütün şagirdləri daha çox işləməyə və öyrənməyə davam etməyə təşviq etmək əvəzinə, bu cür mühit onları ruhdan sala və təhsil sistemindən kənarlaşmalarına yol aça bilər.



Həm formativ, həm də summativ qiymətləndirmə dərs prosesinin və təlim strategiyalarının effektivliyinin müəyyən edilməsində rol oynayır. Qiymətləndirmə məlumatların toplanması və təhlili, eləcə də nəticələrin müzakirəsi, çətinliklərin müəyyən edilməsi və həll yollarının axtarışı mövzusunda həmkarlarla tədris prosesinin səmərəliliyinin artırılmasına xidmət edir.

Layihə
Avropa İttifaqı
tərəfindən
maliyyələşdirilir





## Müəllimlər üçün tövsiyələr:

Müəllimlər uşaqların, xüsusilə əlilliyi və autistik spektr pozuntusu olan uşaqların ehtiyaclarını müəyyən etmək və həll etmək üçün məsuliyyət daşıyırlar. Unutmaq olmaz ki, hər bir müəllim məktəbdə bir məsləhətçi kimi könüllü olmalıdır. Bülletenimizin budəfəki buraxılışında Autistik spektr pozuntusu (ASP) olan uşaqların tədrisi və əlverişli tədris mühitinin inkişafı üçün praktiki tövsiyələr təqdim edirik:

- *Autistik spektr pozuntusu üzrə baş koordinator olacaq bir müəllim təyin edin (həmin şəxsin bu işdə könüllü olması daha yaxşıdır). Seçilmiş şəxs təlimləndirilməli və sonra isə autistik spektr pozuntusu olan şagirdlərə dərs keçən və ya ünsiyyətdə olan öz əməkdaşlarını təlimatlandırmalıdır.*
- *Autistik spektr pozuntusu olan uşaqlarla iş təcrübəsi və biliyə malik müəllimləri məktəbdə və məktəbdən kənar digər aidiyyəti şəxslərlə, əhali ilə iş proqramı daxil olmaqla, həmçinin digər tədris orqanları və yaxındakı məktəblərlə öz təcrübələrini bölüşməyə motivasiya edin.*
- *Müəllimlərin, məktəb rəhbərliyinin və valideynlərin istifadəsi üçün Autistik spektr pozuntusu ilə əlaqəli "yeni işlər haqqında" məlumat bankını daim yeniləyin.*
- *Mütəxəssis heyəti - dəstək birlikləri və ya resurs mərkəzlərindən resurs müəllimləri ilə məsləhətləşin. Dinamik dəstək sisteminin yaradılmasını dəstəkləyin.*
- *Əmin olun ki, ASP sindromlu uşaqların onların ehtiyaclarına uyğunlaşdırılmış fərdi təhsil planları var. Bir mühitdə öyrənilən təcrübələri digər mühitdə ümumiləşdirmək üçün ASP sindromlu uşaqlar üçün imkanların yaradılmasını təmin edin.*

**Mənbə:** Xüsusi kitabça 3: İnklüziv siniflərdə əlilliyi olan uşaqların təhsili (UNESCO)
https://www.inkluzivtehsil.az/book/17.html

# İnklüziv siniflərdə "Eksperimental davranış fəaliyyəti"

Buna görə də davranış, sosial və emosional çətinlikləri olan uşaqların davranış formaları düşdükləri şərait və vəziyyətdən çox asılıdır. Müxtəlif əlilliyi olan uşaqların fərdi ehtiyacları valideynlər və müəllimlər tərəfindən lazımi tərzdə qarşılanmadığı halda uşaqların sosial, emosional və davranış problemləri yarana bilər. Bəs sosial, emosional və davranış çətinlikləri olan uşaqları nə xarakterizə edir?

- *Sosial çətinliyi olan uşaqlar digər uşaqlarla və/və ya böyüklərlə təmas, oyun və qarşılıqlı əlaqə zamanı maneələrlə üzləşirlər.*
- *Emosional çətinliklərlə üzləşən uşaqlar öz hissləri ilə mübarizə aparırlar (qorxu, kədər, təklik, əhval və depressiya və s.).*
- *Valideynlər və müəllimlərin aqressiv və gözlənilməz davranışları zamanı emosional çətinliyi olan uşaqlar, adətən, öz davranışlarını idarə etməkdən çəkinirlər.*

İnklüziv siniflərdə "Eksperimental davranış fəaliyyəti"ni uğurla həyata keçirmək üçün aşağıdakı praktiki işdən istifadə edə bilərsiniz:

Siniflərdə hər uşağın bazar ertəsi divardan asılan öz adı ilə qeyd olunmuş bir vərəqi var. Onlar müxtəlif şəkillərə (avtomobil, ev, çiçək, heyvan, şəxs və ya bir əşyaya oxşar) modelləşdirilə bilən beş ədəd müxtəlif rəngli kağız kəsirlər. Hər gün onlar qaydalara əməl etdikdə, onlara öz adları olan vərəqin üzərinə kəsilmiş vərəqləri yapışdırmağa icazə verilir. Həftənin sonunda onlarda tam bir şəkil alınacaq. Müəllim uşağın valideynlərinə onun fəaliyyəti barədə konstruktiv şəkildə şərh olunan mesaj göndərəcək. Məsələn: Bu həftə Zarina bütün qaydalara əməl etdi və onun davranışı yaxşılaşmışdır. Bu, uşaqlara müvəffəqiyyət qazanmaq və öz davranışlarına nəzarət etmək imkanı verəcəkdir.

Bu fəaliyyət sayəsində şagirdlər eyni zamanda qaydalara əməl olunması və ya pozulmasının nəticələrini öyrənəcəklər.




**Mənbə:** *Xüsusi kitabça 3: İnklüziv siniflərdə əlilliyi olan uşaqların təhsili (UNESCO)*

https://www.inkluzivtehsil.az/book/17.html

Bülleten Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Bülletenin məzmununa görə "Regional İnkişaf" İctimai Birliyi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul oluna bilməz.

Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir








# İnklüziv təhsildə valideyn təcrübəsi:

## Nigar Süleymanova

*Şəki rayonu*

Autizm - kimisi bunu xəstəlik, kimisi əlillik, kimisi də ünsiyyət və sosial bacarıqların olmaması kimi başa düşür. Kim necə başa düşürsə, elə də qəbul edir. Amma mən autizmi insanın özünəməxsusluğu kimi başa düşürəm. Həyat təcrübəmə əsasən bilirəm ki, autizm spektr pozuntusu olan bir insan digər bütün insanlar kimi inkişaf edə bilər. Kənardan övladı haqqında deyilən sözlər, pıçıldaşmalar, narahatedici baxışlar ana və atanı məyus edir. Bir valideyn kimi bu hissləri keçirmişəm. Elə olursan ki, sırf cəmiyyət olmasın deyə övladını evə həbs etməyə vadar olursan. Bəzən küsürsən, bəzən yorulursan, bəzən də ümidini itirirsən ki, düzəlməyəcək. Amma bir anlıq övladının gözlərinə baxırsan. O gözlər ki, səndən kömək, dəstək istəyir və səni mübarizəyə ruhlandırır. O an hər şey yadından çıxır. Baş verən kiçik bir dəyişiklik sənə yenidən davam etməyə stimul verir. Əvvəllər övladımı 9 yaşında, yəni vaxtından gec məktəbə qoymağı planlaşdırırdım. Sonra həkimin “Qoy öz həmyaşıdları ilə məktəbə getsin” sözü məni fikrimdən daşındırdı və oğlumu ümumtəhsil məktəbinə qoydum. İlk 5 ayı onu məktəbə çəkinərək aparırdım. Çünki yolda və məktəbdə ağlayırdı. Mən də düşünürdüm ki, əvvəl on nəfər bu barədə bilirdisə, indi yüz nəfər biləcək. Ancaq analıq şəfqəti bu narahatlığı da yenməyə mənə güc verdi. Məktəbdən və müəllimdən gözlədiyim yalnız oğlumun dərsdə 4 saat oturmasını təmin etmək idi. Bu çətin və yorucu proses olsa da bacardıq. Bu hər birimizin –məktəb rəhbərliyi, müəllim, oğlum və mənim ortaq nailiyyətimiz idi. Bu inkişafın ilk mərhələsi idi. Oğlum dərsdə oturmağı vərdiş etdikdən sonra bu hal bizim üçün adiləşdi. Bundan sonra biz onun öz həmyaşıdları kimi oxumağını, dinləməyini, dərsə cavab verməyini qarşıya məqsəd qoyduq və əlbəttə buna nail olduq. Mən daim araşdırırdım, müşahidə aparırdım, ən əsası isə oğlumla günlərlə, saatlarla məşğul oldum və gördüm ki, oğlum da başqa uşaqlar kimi materialı mənimsəyir. Oğlum hələ də bəzi hallarda ağlayır, narahatlıq törədir, ancaq biz birlikdə yolun yarıdan çoxunu qət etmişik. O, hal-hazırda yazır, oxuyur, məsələ həll edir, hətta tapşırığı oxuyub anlayır və icra edir. O, öz müəlliməsinə çox bağlıdır. Bəlkə də bu dediklərim kimin üçünsə maraqsız bir hadisə kimi görünə bilər. Mənim üçün isə bu, çox böyük qələbədir. Övladım artıq ətrafında onu sevən insanların fərqinə varır və onlarla qarşılıqlı ünsiyyətdə olur. İnanıram ki, bu qətiyyətimizlə bir bugünkü çətinlikləri arxada qoyacaq və daha böyük nailiyyətlər əldə edəcəyik.

*Website:* *www.inkluzivtehsil.az*
*Əlaqə:* *012-505-01-50*
*E-poçt:* info@ie-rt.az
**Facebook:** *@inkluzivtehsilAzerbaycan*
**İnstagram:** *@inkluzivtehsil*

Bülleten Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Bülletenin məzmununa görə “Regional İnkişaf” İctimai Birliyi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul oluna bilməz.